**UOT 82(091); UOT 82-1**

# KİŞVƏRİ POEZİYASINDA TƏSƏVVÜF MOTİVLƏRİ

**M.V.SÜLEYMANOVA**
***Bakı Dövlət Universiteti***
***melek.suleymanova@yahoo.com***

*XV əsr klassiklərindən olan N.Kişvərinin yaradıcılığı ideya-bədii xüsusiyyətləri, xalq dilinə yaxınlığı, səmimiliyi, gerçəkliyə yaxınlığı ilə seçilən bir xəzinədir. Kişvəri bəşəri düşüncələrini dini-təsəvvüfi ideyaların fonunda fövqə qaldıraraq dünyanı müxtəlif prizmalardan əks etdirmişdir. Bu məqalədə Kişvərinin yaradıcılığının əsas fikir mənbələri, bəzi mübahisəli məqamları, təsəvvüf motivlərinin ideya-bədii xüsusiyyətləri, dünyagörüşündə özünü açıq büruzə verən ikili mahiyyət araşdırılmışdır.*

**Açar sözlər:** XV əsr Azərbaycan poeziyası, N.Kişvərinin dünyagörüşü, təsəvvüf motivləri, dünyəvilik, dini motivlər

XV əsr Azərbaycan ədəbiyyatının seçilən nümayəndələrindən olan, türk poeziyasının üstünlüklərini əsərlərində təcəssüm etdirən Nemətullah Kişvərinin yaradıcılığı öz sadəliyi, eyni zamanda mükəmməlliyi ilə şöhrət qazanmışdır. Kişvəri bəşəri düşüncələrini dini-təsəvvüfi ideyaların fonunda fövqə qaldıraraq dünyanı müxtəlif prizmalardan əks etdirmişdir.

Kişvərinin həyat və yaradıcılığı haqqında ilk məlumatı 1943-cü ildə akad. H.Araslı vermişdir. Şairin həyatı haqqında məlumat çox azdır və bizə gəlib çatan məlumatların da bir çoxu mübahisəlidir. Bu haqda müfəssəl məlumatı R.Eyvazova “Kişvəri dilinin morfoloji xüsusiyyətləri” adlı əsərində (1983), C.Qəhrəmanov və Ə.Səfərli Kişvəri “Divan”ının ön sözündə (1984, 2004), şairin son illərdə yeni tapılmış əlyazmaları əsasında tərtib olunmuş “Türk divanı”nın ön sözündə Məhəmməd Hüseyni vermişdir (2010). Burada N.Kişvəri haqqında məlum bilgilər müfəssəl şərh edilmişdir.

Kişvərinin yaradıcılığı onun ifadə tərzi və üslub baxımından türk poeziyası ilə yaxınlığından, klassik Şərq ənənələrinə bağlılığından xəbər verir. Şairin poeziysı geniş tədqiq olunmasa da, onun dünyagörüşü, lirikasının məzmunu, fikir qaynaqları haqda verilən qısa məlumatlar və mülahizələr ziddiyyətli və mübahisəlidir. Bu lirikanın düzgün qavranılması bir sıra mühüm və mürəkkəb şərtlərin aydınlaşdırılmasını tələb edir ki, həmin şərtləri müəyyənləşdirmək üçün şairin dünyagörüşünün, lirikasının fikir qaynaqlarının dərinliklərinə enmək zərurəti yaranır.

Ümumiyyətlə, XV əsr Azərbaycan ədəbiyyatı əhatə etdiyi mövzu və ideya baxımından zəngin və əhatəlidir. İstər yazı və üslub, istər ədəbi-texniki priyom və dil zənginliyi, istər mövzu və motiv rəngarəngliyi, istər ideya-estetik mülahizələr, istərsə də dini-fəlsəfi ideyalar baxımından intibah ədəbiyyatını şərtləndirən XV əsr klassiklərinə daxil olan Kişvəri yaradıcılığı da bu xüsusiyyətlərin daşıyıcısıdır. Bu dövrdə olan sənətkarların əksəriyyəti ən çox dini-fəlsəfi, təsəvvüf ideyalarına əsaslanırdılarsa, klassik üsluba daha çox meyl edirdilərsə, Kişvəri daha çox bəşəri, ictimai-sosial görüşləri, xalq üslubuna yaxınlığı ilə onlardan seçilirdi. Sözsüz ki, Kişvəri poeziyası dini-fəlsəfi ideyalardan kənar deyil. Onun poeziyası bu humanizm mənbəyindən təcrid oluna bilməzdi və şairin şeirlərində bunun tez-tez şahidi oluruq. Kişvərinin bütün bəşəri və ictimai-sosial görüşləri məhz çox zaman dərin təsəvvüfi-dini baxışlarının aspektində çözümlənir. Kişvəri bəzən açıq, bəzən də lirik-romantik, irfani örtük arxasında bəşəri hisləri təcəssüm etdirirdi. Fəlsəfi humanizm, xəlqilik, ictimai-sosial və demokratik ideyalar onun yaradıcılığının əsas ideya-estetik xüsusiyyətləridir. Şairin şeirlərinin poetik, psixoloji-ictimai mahiyyəti və məntiqi bu baxımdan araşdırılmalıdır.

H.Araslı, R.Eyvazova, C.Qəhrəmanov, Ə.Səfərli və M.Hüseyni Kişvərinin yaradıcılığında dini-təsəvvüfi ideyaların, demək olar ki, heç olmadığını, ya da çox az olduğunu qeyd edirlər.

Əsərlərində təriqət təsirləri görünməyən bu sənətkarda hiss edilən kədər həyat və məişətlə əlaqədardır (4, 37). Burada dini-təriqət təsirlərinə çox az təsadüf olunur (8, 13). Kişvəri Azərbaycan və fars dillərində "divan yaratmış, əsasən, lirik qəzəllər yazmış, ülvi məhəbbəti tərənnüm etmiş, görkəmli sənətkar səviyyəsinə yüksələrək dini görüşlərdən, təriqətdən azad sərbəst yaradıcılıq yolu keçmişdir (6, 3).

Filosof Z.Quluzadə isə Kişvəri yaradıcılığının sufi ideyalarla zənginliyini irəli sürür: "Kişvəri irsində sufi-fəlsəfi məhəbbət ruhu ilə qidalanmayan şeir tapmaq çətindir. Bu, onun sufiliklə bağlı oıduğunu sübut edir. Buna baxmayaraq, onun əsərləri içərisində sufi fəlsəfəsinin ayrılmaz tərkib hissəsi olan panteist doktrinasını, qneseologiyasını açıq əks etdirən nümunələrinə nadir halda rast gəlinir" (9, 176). Tədqiqatçının fikrincə, Kişvəri sufi məhəbətdən daim yazsa da, sufi fəlsəfəsinin dərinliklərinə varmamışdır.

Kişvəri lirikasının ikili mahiyyətini nəzərdən qaçırmaq olmaz. O, dövrün ictlmai-tarixi, fəlsəfi-estetik və əxlaqi-etik gerçəkliklərindən çıxış etmişdir. Bu baxımdam şairin poeziyasında sufi-təsəvvüf görüşlərini təkzib etmək qeyri-mümkündür. Kişvəri poeziyası Gülşəni irsi kimi tam təriqət ədəbiyyatı sayılmasa da, bu təsir özünü açıq-aydın göstərir. Onun bəzi şeirləri sırf təsəvvüf ideyalarına, bəziləri də bu ideyaların fonunda bəşəri duyğulara əsaslanır. Dünyanın həm maddi-fiziki, həm də mənəvi-ruhi gözəlliklərini Allah yaratdığı üçün Kişvəri şeirlərində oradakı pərdələr arasından Allah nuru görünür.

Mən kim, ərirəm yüzün görcək nə əcəbdir,
Kim gördü ki, bir yerdə ola atəş ilə mum (7, 66).

Bu beyt sırf dini məzmun daşıyaraq Qurani-Kərimin əl-Əraf surəsinin 143-cü ayəsinə əsaslanır. "...(Musa): Ey Rəbbim! Üzünü mənə göstər. Sənə baxım!"- dedi. Allah: "Sən Məni görə bilməzsən. Lakin dağa bax. Əgər o, yerində dura bilsə, sən də Məni görə bilərsən!" – buyurdu. Rəbbi dağa təcəlli etdikdə onu parça-parça etdi. Musa da bayılıb düşdü. Ayılandan sonra isə "Sən paksan, müqəddəssən! Sənə tövbə etdim. Mən iman gətirənlərdən birincisiyəm!"- dedi" (əl-Əraf, 143)

Bədii mətnin zahiri və batini qatlarının müəyyən dərəcədə ayrı-ayrı müstəqil mənalar kəsb etdiyini nəzərə almadan şairin dünyagörüşü haqqında obyektiv nəticəyə gəlmək çətindir. Çünki ezoterik poeziyada məna daxilində məna gizlənir.

Hicrində artdı möhnətim, ey Kişvəri, gör vəhdətim,
Dəşti-fənadır xəlvətim, kuyi-məlamət məskənim. (7, 63)

Təqvavü vərə-xəlvətdən çəkdi çıxardı,
Mən bəxti-qəranı (7, 160).

Aşiq oldur kim, əgər düşsə fəna dəryasına,
Kişvəri tək bilməyə meyli-kənar etmək nolur (7, 33)

Sırf təsəvvüf ideyalarına əsaslanan bu beytlərdə vüsal həsrətilə, vəhdət məqamının yanğısı ilə yaşayan aşiq xəlvət yolunu tutur. Buna nail olmayan aşiq özünü məzəmmət edir. Təsəvvüfə görə fəna yolu aşiqi vüsala yetişdirsə, hicran dərdi azalar. Digər beytində: "Kişvəri, imdi fəna yolunu gözət" (7, 40) – deyən şair çıxış yolunu yalnız bunda görür.

Səhraya düşdüm tilbə-rab gögə yetişdi nalişim,
Qıldı tikanlar üstünə hər pareyi-pirahənim.
Gögə çıx, ey naləvü bu əxtari-sərgəştədin,
Sorgil əhvalımnı, gör kim, nə zəvalım var mənim (7, 63).

Şairin kainat, cəmiyyət, insan və həqiqət barəsində düşüncələri lirik qəhrəman vasitəsilə açıqlanır. Eşq müşahidədən başlayaraq heyranlığa və heyrətə keçir. Heyranlıq və heyrət içində mənəvi-ruhi istəklərin axtarışında olan aşıqın bu naləsi göylərə ucalır. Eşq yolunda əvvəli kədər, sonu fəna olan yolçuluğun sonu vəhdətdir.

Öldürün, ey dustilər, düşvarlıq bilə məni,
Ta ki, aşiq bolmasın hiç kimsə asanlığ bilə (7, 111).

Aşiq eşqin əzab və çətinliyinin labüdlüyünü dərk edərək şikayətlənir. Digər qəzəlində isə eşqi həyatın, varlığın mənası sayır.

Gövhəridir eşq kim, heç kimsə bilməz qədrini,
Adəm oğlu eşqsiz bir cismdir kim, camı yox.
Vəh ki, bu dərdi-məhəbbət nə bəlalığ dərd imiş
Kim, ana ölməkdin özgə çarəvü dərmanı yox (8, 22).

Burada şair açıqcasına irfani məhəbbətdən söhbət açır. Sevginin zirvəsi ölüm - fəna olduğundan sevən kəs ölümdən qorxmaz. Aşiqin məqsədi eşq əzabından, feyzindən məhv olub bəqada amalına çataraq dirilməkdir. Eşq insanın ruhudur ki, onsuz insan müqəvvadır.

Bu kim, qalur gözi açux ölür çağında aşiqnün,
Sevir dildarini, ol həsrəti-dildar imiş, bildim (7, 66) .

Kişvəri bütün aşıqanə qəzəllərində istər dünyəvi, istərsə də irfani məhəbbətdən bəhs edərkən ölümü çıxış yolu, vüsal məqamı kimi ərz etmişdir. Onun lirik qəhrəmanı öz arzu və istəkləri, ideyaları üçün ölümü asanlıqla qəbul edir. Özünüdərk məqamında can İlkinə qovuşaraq vəhdətə çatıb yenidən dirilir. Əvvəlki dirilikdən fərqli olaraq kamil olur.

İç məhəbbət camini, ey zahid ki, bolmaz dəstgir,
Həşr divanında şol təsbihi-övrədin bilə (8, 39).

Kişvəri bu beytdə axirət günündə zahidə yalnız məhəbbətin köməyə çatacağını qeyd edir. Bu gündə - hesabat məqamında yalnız məhəbbət camını içən zahid qurtula bilər. Bir şərtlə ki, bütün ibadət və duaları da məhəbbətdən yoğrulsun.

Mən ol divanəyəm kim, gər bir az cami şərab olsa,
Mana bir cücə qayğu yox, əgər aləm xərab olsa (8, 40).

Burada cami-şərab dedikdə eşq camı nəzərdə tutulur. Eşq şərabını içən aşiq məstlik halı keçirib qəlbi vəcdə gəlir. Bu məqamda olan aşiq eşqin şiddətindən divanəlik halında olur.

Yüzün şənündədür hər ayə-ayə
Əgər Quranı mən təfsir qılsan (7, 62).
Xətti-cəbzin üstünə dağıtma mişkin zülfünü,
Qoymagil bu həlqeyi-zünnari Quran üstünə (7, 101).
Ey sənəm, aşgil yüzündən zülfi-ənbərbarını,
Qoymagil müshəf yüzünə daxı bu zünnarını (7, 129).

Kişvərinin bədii-estetik, fəlsəfi dünyagörüşü dövrün fəlsəfi-mədəni gerçəkliklərini özündə əks etdirir və onun həyata olan münasibətində, həqiqət axtarışlarında təzahür edir. Onun zövq aləmi, keçirdiyi iztirablar mənəvi axtarışları əsasında formalaşmışdır. Sufi-hürufi ideyalar bu baxımdan onun yaradıcılığından kənarda qala bilməzdi. Göstərilən nümunələrdə də şair rəmzi yekunlardan istifadə etmişdir. Orta əsr ədəbiyyatında aşiqin estetik-psixoloji keyfiyyətləri, əsasən, rəmzlərlə verilirdi. Ezoterik poeziyada üz, saç, zülf, kakil, xətti-səba ən çox istifadə olunan simvolik istilahlardır.

İrfanda üz vəhdət rəmzi olub haqqın gözəllik və kamal sifətini əks etdirir. Eyni zamanda hürufilik təliminə görə, üzdə olan cizgilər müəyyən anlamı, sözləri ("Allah" sözünü) ifadə edir və bu cizgilərin ilkin substansiya ilə birlikdə sayı Quran əlifbasında hərflərin sayına bərabərdir. Yəni üz ilahi rəmz kimi mənalandırılırdı.

Saç isə qaranlıq, dünyəvi hislər, kəsrət məzmunu bildirir. Üz iman, saç isə küfr rəmzi olduğundan saç bir qayda olaraq üz ilə qarşılaşdırılır. Küfr imanı gizlətməyə yönəlir və iman üçün qorxuludur, insanı qəflətdə saxlayır (2, 239). Zülf anlamı klassik ədəbiyyatda zünnar ilə, ilan ilə müqayisə edilir.

Kişvərinin poeziyasında zülf, kakil, zünnar sözlərinə çox tez-tez rast gəlinir.

Yüzün üzrə qara xallar pərişan zülfün altında,

Həlqeyi-zülfündən ayru eyləyən divanə kim (7, 131).
Ey cəmalun şəminə kövnü məkan pərvanəsi,
Kakilün zəncirinə canü cəhan düvanəsi (7, 119).
İki zülfün arasında yüzünə qıldım nəzər,
Əydahalar ağzıdin aldum visalın gəncini (7, 118).
Dilbəra, saçın yilan tək qəsdi-can eylər yenə (7, 103).
Saçın fikri ayağu bağlar oldu (7, 100).
Kafərəm gər yüzməsəydim rişteyi-təsbihim,
Həlqeyi-zülfün sənin zünnarım olsaydı mənim (8, 33).
Düşdi könlüm dami-zülfin bəndinə təqdir ilən,
Eylə kim, qurtulmağı mümkün iməs tədbir ilən (7, 95).
Kakilin sevdasinə düşgəc utuzdum dinü dil,
Heç müsəlman bu pərişan fikri sövdalamasun (7, 91).
Kişvəri qurtulmaq istər dami-zülfündən, vəli,
Necə kim, cəhd eylər ol yoluni bağlar kakilin (7, 54).
Ta ki, verdim həlqeyi-zülfi-pərişanına dil,
Kafəri kim, hiç iman yüzini görməz mənəm (7, 74).
Rişteyi-təsbih əlimdən getdi, ey kafir necə
Bolğalı aşüftə saçın bağı, zünnarım mənim (7, 64) və s.

Şair zülfün aşiqi həqiqi eşq yolundan azdırdığı qənaətindədir. Zülf iki cahandan keçib birliyə qovuşmaq istəyən aşiqin yolunda maneədir.

Kişvəri iki cahan nəqdün verür vəslin içün,
Gərçi yoxdur qiyməti sən gövhəri-yekdanin (6, 59).
İki mehman bir evdə çün sığışmaz,
Mənim canım gedər, çün sən gəlürsən (6, 86).

İki cahan, ümumiyyətlə, ikilikdən, əksliklərdən (fəna-bəqa, hicran-vüsal, yar-əğyar, əql-divanəlik, zülmət və nur, cəhd və mərifət, zöhd və eşq, bəndə-sultan, gəda-sultan (2, 282) qurtarıb vahidə qovuşması uğrunda çarpışması, məşuqəyə çatmaq anında, canın cismə sığa bilməməsi, mənşəyinə qayıtmaq cəhdi, bunun üçün aşiqin hər çətinliyə qatlaşmağa hazır olması beytdə ifadəsini tapmışdır.

Həm təzad təşkil edən, həm də biri digərini tamamlayan, biri digərinin zirvəsi sayılan ikiliklərdən olan gəda və sultan qarşılaşması da Kişvərinin bədii-simvolik priyomlarından biridir.

Arizulandim kim, olam eşigində bir gəda,
Bir gədayəm mən, vəli gör niyyəti-sultanlığım (7, 77).
Malü mülki tərk edib oldum eşgindən bir it,
Dün gəda irdim və leykən sahibi-cahəm bu gün (7, 92).

Eşq yolunu tutan, ilahi nur sorağımda olan Haqqın fəqirinin – gədanın məqsədi sultan olmaq – "Haqq tərəfindən verilən səltənət və tovhid sultanlığını qazanmaqdır" (5, 170). Sultanlığı qazanan yolçular itirilmiş var-dövlətin həsrətini çəkməz.

Bütün dünya malı, o cümlədən ona ən yaxın olan bədəni də ona ağır yük

olar... Belə adamın dünya malına göstərdiyi maraq yalnız bu bədənlə əlaqədardır. Ondan yaxa qurtarmaq isə onun öz ixtiyarında deyildir. Ona görə də o, böyük Yaradanın iradəsi xilafına heç bir iş görməz. ...deməli, o nə sevdiyinin yox olmasından qəmlənər, nə arzularının əmələ gəlməməsindən kədərlənər, nə qələbə çalanda çaşar, nə kama çatanda həddini aşar (10, 156).

Mən mənəm mən, kim, qəbuli-həzrəti-şahəm bu gün,
Xələti-şahi geyb, məqbuli-dərgahəm bu gün.
Kişvəri gər itimas etsə ki, oldürgil məni,
Gər sevirsən Tanrı(nı) demə ki, fərda həm bu gün (7, 92).

Kişvəri eşqinin zirvəsi – ölərək ölümsüzlüyə qovuşmaq istəyi, şahlıq – kamillik məqamı, mənəvi-ruhi pik nöqtəsi bu beytdə öz bədii-estetik ifadəsini tapmışdır. Artıq lirik qəhrəman ölməzlik məqamına çatdığını dərk edərək ruhuna rahatlıq vermək istəyir.

Ğəribliğ ixtiyar etməz kimin kim, yari yar olsa,
Dirilməz yarsiz bir dəm kişi gər ixtiyar olsa (7, 101).

Ruhun qəribliyi – cisim içində dustaqlığı klassik ədəbiyyatda geniş yayılmış motivlərdən biridir. Onun qəriblikdən qurtarması, dirilməsi üçün yar – məşuqə sevgisi olmalıdır. Bu sevgi cismi öldürərək ruhu dirildir.

Ey könül, dünya evində istəmə abadlıq.
Kim, anun bunyadıdur əslində bibünyadlığ (7, 45).

Kişvəri eşq-məhəbbət şairidir. Onun məhəbbəti Gülşəni məhəbbəti qədər irfani olmasa da, Vaqif məhəbbəti qədər tam real və dünyəvi deyil. Onun lirikasında təsəvvüf meylləri, mistik motivlər bir tərəfdən dövrün aparıcı fəlsəfi-dini ideyalarından yan keçə bilməməsi, bu axının axarında getməsi ilə əlaqədardırsa, digər tərəfdən ədalətsizliyin hökm sürdüyü həyatdan, şəxsi həyatdakı məhdudiyyətlərdən irəli gəlirdi. XV əsr ədəbiyyatının mürəkkəb tarixi-ədəbi zəmini içərisində onun yaradıcılığının ideya-estetik xüsusiyyətləri tam təsəvvüfi-irfani olmasa da, kifayət qədər bu dünyagörüşü ilə sıx əlaqədardır. Sözsüz ki, onun yaşadığı dövrün - Gülşəni və Nəsimi əsrinin klassikləri bundan kənar qala bilməzdi. Kişvərinin şair ruhu həmişə maddi aləmdən rahatlıq tapa bilməmiş, bəzən o, bu rahatlığı ruhi aləmdə axtarmağa çalışmışdır. Kişvəri yaradıcılığı dünyəvi və ilahi məhəbbət arasındakı əlaqələri bədii-simvolik rəmzlərlə ifadə etmişdir. Çünki istər dünyəvi gerçəklikdən və istər mənəvi-ruhi həyatdan alınan zövq eşqlə reallaşır. Onun poeziyasının ideya-məzmun məqsədi, əsasən, dünya və əbədilik arasında insan duyğularının keçirdiyi sarsıntıları və təkamül yolunu göstərməkdir. Kişvəri yaradıcılığında ilahi eşqlə həyati-dünyəvi eşq arasında hüdud tapmaq çox zaman çətinlik törədir.

Demək, Kişvəri lirikasının, dünyagörüşünün ideya mənbələrinin, əsasən, iki mənbə üzərində qurulduğu aydınlaşır.

1. Mənəvi-ruhani duyğulara əsaslanan dini-təsəvvüfi ideyalar.
2. Gerçəkliyə əsaslanan həyati-dünyəvi ideyalar

Bu fikir qaynaqları ziddiyyətli cərəyanlar kimi deyil, bir-birinin məntiqi dəyəri və davamı kimi qiymətləndirilir.

## ƏDƏBİYYAT

1. Qurani-Kərim. Bakı: Qismət, 2006, 495 s.
2. Cümşüdoğlu N. Füzulinin sənət və mərifət dünyası, Bakı-Tehran: 1997, 386 s.
3. Eyvazova E, Kişvəri "Divan"ının dili (Morfoloji xüsusiyyətlər). Bakı: Elm, 1983, 136 s.
4. Ədəbiyyat məcmuəsi. Nizami adına Ədəbiyyat İnstitutunun əsərləri. 4 cilddə, II cild, Bakı: AzSSREA nəş., 1946, 225 s.
5. Göyüşov N. Təsəvvüf anlamı və dərvişlik rəmzləri. Bakı: Elm, 2001, 237 s.
6. Kişvəri, Əsərləri, Bakı: Yazıçı, 1984, 163 s.
7. Kişvəri, Əsərləri, Bakı: Şərq və Qərb, 2004, 210 s.
8. Kişvəri. Türk divanı, Bakı: Nurlan, 2010, 140 s.
9. Кули-заде З.А. Из истории азербайджанской философии VII-XVI веках. Баку: Элм, 1992, 211 с.
10. Tusi N. Əxlaqi-Nasiri. Bakı: Elm, 1989, 251 s.


## МОТИВЫ МИСТИЦИЗМА В ПОЭЗИИ КИШВЕРИ


**М.В.СУЛЕЙМАНОВА**


## РЕЗЮМЕ


Творчество Н.Кишвери – одного из классиков XV века – отличается своим идейно-художественным своеобразием, близостью к народному языку, искренностью и реалистичностью. Кишвери оригинально выражал свои общечеловеческие взгляды на фоне религиозно-мистических идей, рассматривая мир под различными углами зрения. В данной статье исследуются основные идейные источники творчества Кишвери, некоторые спорные моменты, идейно-художественные особенности мистических мотивов, явно проявляющаяся двойственная сущность его мировоззрения.



**Ключевые слова:** Кишвери, поэзия, творчество, мистицизм, мотив


## MOTIVES OF MYSTICISM IN KISHVERY'S POETRY


**M.V.SULEYMANOVA**


## SUMMARY


The ideological-artistic originality, affinity to mother tongue, sincerity and reality are distinctive features of N.Kishvery's creativity – one of the classics of the XV century. N.Kishvery in an original way expressed the universal views against religious-mystical ideas, considering the world under various points of view. The article investigates the basic ideological sources of the poet's creativity, some disputable moments and ideological-artistic features of the mystical motives and the dual essence of his outlook.



**Key words:** Kishvary, poetry, creativity, mysticism, motive